**UOT 78**
**https://doi.org/10.59849/2311-8482.2024.2.278**

**MUSTAFA AŞUROV***

# XIX-XX ƏSRİN DİRİJORLARI VƏ ONLARIN İNTERPRETASİYALARI

*Təqdim olunan məqalənin aktuallığı ondan ibarətdir ki, burada ilk dəfə olaraq XIX-XX əsr dünya şöhrətli dirijorların qısa yaradıcılıq yolu və onların interpretasiyaları araşdırılır. Tədqiqat prosesində məşhur dirijorlar Lüdviq Şpor, Arturo Toskanini, Pyer Monte, Vilhelm Furtvenqler, Nikolay Anosov, Qauk Aleksandr Vasilyeviç və Klaudio Abbadonun dirijorluq ənənələri, orkestrləşdirmə dəsti-xətti və orkestrlə iş prinsipləri müəyyənləşdirilir. Təsdiq edilir ki, bu dirijorların adları dünyanın ən məşhur dirijorları siyahısına daxil edilmişdir. Onların hər birinin özünəməxsus interpretasiyası olub, onlar dirijorluq sənətini yeni üsullarla zənginləşdirmişlər. Adları sadalanan dirijorların ifaçılıq priyomları gələcək nəsil dirijorlar üçün əvəzolunmaz bir məktəbdir.*
***Açar sözlər:*** *dirijor, interpretasiya, dünya şöhrətli, maestro, orkestr, Vilhelm Furtvenqler, Nikolay Pavloviç Anosov, Klaudio Abbado.*

## Giriş

Musiqi incəsənətinin müstəqil qolu olan dirijorluq sənəti yüzilliklər ərzində formalaşaraq müasir səviyyəyə gəlib çatmışdır. Dirijor bütün dövrlərdə orkestrin idarəçisi olmuş və dinləyici auditoriyasının diqqəti məhz dirijora yönəlmişdir. Fəaliyyət göstərdiyi əsrlər boyu dünya musiqisində yüzlərlə istedadlı dirijor nəsli yetişmişdir. Təqdim etdiyimiz məqalədə XIX-XX əsrin ən məşhur dirijorlarının yaradıcılıq yolunu və onların interpretasiyalarını araşdırmaqla diqqətinizə çatdırmaq istərdik.

Görkəmli alman dirijorlu Lüdviq Şporun yaradıcılığı XIX əsri əhatə edir. Bu dövrdə dirijor kimi fəaliyyətə başlayan Lüdviq Şpor həm bəstəkar və həm də violin ifaçısı kimi məşhurlaşmışdır.

## Əsas təhlil

1816-cı ildə L.Şpor Fridirix Klinqerin romanı əsasında bəstələdiyi “Faust” operasının premyerasına virtuozluqla dirijorluq edir. Onun interpretasiyasında operanın tarixi yolu və buradakı obrazların xarakteri ustalıqla açılır. Lüdviq Şpor öz əsərlərinin təfsiri zamanı dirijor çubugundan istifadə edərək, dirijorluq sənətinə yenilik gətirmişdir. Bu ənənə ondan sonra gələn dirijorlar nəsli tərəfindən müsbət qarşılanaraq, ugurla davam etdirilmişdir. Lüdviq Şporun yaradıcılığı bir bəstəkar kimi çoxşaxəli olub, müxtətlif janrlara müraciət edir və öz əsərlərinin ən mahir təfsirçisi kimi tanınır.

XIX əsrin mahir dirijorlarından sayılan Arturo Toskanini özünəməxsus interpretasiyaları ilə musiqi ictimaiyyəti tərəfindən sevilmişdir. Onun dirijorluq fəaliyyəti yetmiş illik bir dövrü əhatə edir. Bu müddət ərzində dogma İtaliya musiqisini-opera və baletləri professionallıqla idarə etmişdir. Arturo çox tələbkar və ciddi bir dirijor idi. Orkestr üzvlərindən təmiz səslənmə, ciddi nizam-intizam tələb edir, bütün partiyaların düzgün ifa prosesinə nəzarəti vacib sayırdı. Müxtəlif xalqların musiqisini böyük həvəslə dirijorluq etsə də, italiya musiqisi daima onun qəlbində yaşayır, bu musiqinin incəlikləri onu riqqətə gətirirdi. Cüzeppe Verdinin “Aida” operasının təfsiri ilə bütün dünyada böyük uğur qazanır. Operadakı obrazların xarakterini əl jestləri və mimikası vasitəsilə ustalıqla açaraq ifaçılara və dinləyicilərə çatdırmağa nail olur. Arturo Toskanininin rəhbərliyi ilə opera hansı ölkədə tamaşaya qoyulurdusa, böyük anşlaqla qaşılanırdı.

Cüzeppe Verdinin yaradıcılığı və əsərləri Arturonu valeh edir və dəfələrlə onun əsərlərinə müraciət edirdi. Bəstəkarın bütün operalarını böyük virtuozluqla təfsir etmişdir. Rus xalqının klassik musiqisinə maraq göstərən Arturo Toskanini P.Çaykovskinin *Beşinci* və *Altıncı* simfoniyasının dirijorluğu ilə də bütün dünyaya səs salır. Rus musiqişünasları yazırdı: “*Arturo Toskanininin Nyu-Yorkda Metropoliten Opera Teatrında işlədiyi dövr teatrın tarixində “Qızıl dövr” kimi tarixə düşdü. Belə ki, dirijor bu illər ərzində Teatr orkestrinin repertuarını son dərəcə zənginləşdirib, buraya dahi bəstəkarların bir sıra əsərlərini daxil etdi”* [Константинова И.Г., Тарасов Л.М. Лань, 2011, 640 с.].

1942-ci ildə Amerikada D.Şostakoviçin yeddinci simfoniyasını idarə edir və bu möhtəşəm çıxışı ilə bir daha dünya şöhrətli bir dirijor olduğunu təsdiqləyir. Arturo Toskanini musiqi duyumu və yaddaşı, peşəkar dirijorluq jestləri və orkestrlə iş üslubu ilə bütün kollektivin rəğbətini qazanmışdır. Mükəmməl qavrama qabiliyyəti olub, ona təqdim olunan əsəri növbəti gün əzbər dirijorluq etmək kimi qabiliyyətinə malik idi. O, əsərin müəllifinin fikrinə sadiq qalaraq, not mətnini olduğu kimi təfsir

edir, temp və dinamika baxımından heç bir dəyişikliklərə yol vermirdi. İtaliya musiqi mədəniyyətinin çiçəklənməsi üçün mühüm xidmətlər göstərən Toskanini özünün vəsiyyət etdiyi kimi Cüzeppe Verdinin "Nabukko" operasından "Va, pensiero" xorunun sədaları altında son mənzilə yola salındı. Bununla da Maestro bir daha İtaliya xalqına və onun musiqisinə bağlılığını sübuta yetirdi.

Pyer Monte dünyanın məşhur dirijorlarından biri olub, onun yaradıcılığı XIX-XX əsrləri əhatə edir. İlk dirijorluq etdiyi əsər İqor Stravinskinin "Petruşka" əsəri olub, bu əsərin dirijorluğuna görə fəxri maküfatla təltif olunur. Dirijorluq sahəsindəki nailiyyətləri peşəkar dirijorluq sənəti ilə daha dərindən məşğul olmasına zəmin yaradır. Tədricən professionallaşaraq dünya klassiklərinin əsərlərinə böyük maraq göstərir. Dirijorun repertuarında İ.S.Bax, Y.Haydn, L.Bethoven, F.Şubert, M.Qlinka, P.Çaykovski, S.Prokofyev və b. bəstəkarların əsərləri mühüm yer tuturdu. Dünyanın ən aparıcı kollektivlərinə rəhbərlik etmək üçün müxtəlif ölkələrə dəvət alır. Belə ki, S.Dyaqileva adına Rusiya Balet Truppasının baş dirijoru, Amerika Birləşmiş Ştatlarında Boston və San-Fransisko orkestrinin dirijoru, Amsterdam "Konsertqebau" orkestri, London Filarmoniya orkestrinin dirijoru kimi çalışaraq, böyük nailiyyətlər qazanır və bu orkestrlərin hər birində fəaliyyət göstərən ifaçılarla səmimi münasibətlər qurmağa nail olur. İfaçılara bir-birinə hörmətlə yanaşmağı, ifa prosesində tərəf müqabillərini dinləməyi məsləhət edir və orkestrdə ansambl səslənməsini əsas amil kimi diqqət mərkəzində saxlayırdı. Orkestrin bütün üzvəri dirijora böyük hörmətlə yanaşır, onun fikirlərini dərhal başa düşür və dirijorun mimikasından onun idayalarını anlayırdılar.

Pyer Monte ilə uzunmüddətli yaradıcılıq və dostluq əlaqələri saxlayan rus musiqiçisi İqor Stravinski öz əsərlərini məhz Montenin təfsirində görmək istəyini belə ifadə edirdi: "*Monte mənim bütün fikirlərimi olduğu kimi çatdırmağı bacarır. Bir bəstəkar kimi onunla işləməkdən böyük zövq alıram*". [Друскин М.С. Ленинград, Советский коьпозитор, 1974, с. 221].

Görkəmli alman dirijoru Vilhelm Furtvenqler 1915-ci ildə Manheyn Opera Teatrında dirijorluq fəaliyyətinə başlamışdır. Ugurlu idarə etmə bacarağı onu Berlin Dövlət Opera Teatrına və Berlin Filarmoniyasının orkestrinə gətirib çıxarır. Hər iki kollektivlə ölkə daxili və xaricdə qastrol səfərlərinə başlayaraq, ölkəsini yüksək səviyyədə təmsil edir. Bu ugurlarının nəticəsi onu Almaniyanın Hevandhauz Simfonik Orkestrinə rəhbərlik etməyə gətirib çıxarır. Ömrünün son illərinə kimi bu orkestrlə əməkdaşlıq edərək, orkestrin daha da püxtələşməsində, tərkibinin genişlənməsində və repertuarın zənginləşməsində mühüm addımlar atır. Bir sıra dünya xalqlarının görkəmli bəstəkarlarının əsərlərini interpretasiya edərək, onları orkestrin repertuarına daxil edir. Vilhelm Furtvenqlerin özünəməxsus orkestrləşdirmə dəsti-xətti olub, bir sıra əsərləri rəhbərlik etdiyi orkestr üçün köçürür. O, orkestrdə simli alətlərlə yanaşı zərb alətlərinin rolunu mühüm hesab edir və orkestrləşmələrində zərb alətlərinə mürəkkəb partiyalar həvalə edərək deyirdi: "*Zərb alətləri hər bir orkestrin döyünən ürəyidir. Zərb alətləri olmasa orkestrin nəfəs alması mümkün deyil*" [Kater M.N. 1997].

1928-ci ildə Almaniya mədəniyyətinin yüksəldilməsi uğrunda nailiyyətlərinə görə Vilhelm Furtvenqler fəxri fərmanla təltif edilir və Avropada, Amerika, Rusiyada məşhurlaşır. Bertold Holdşmit onun haqqında yazırdı: "*Furtvenqler dahi dirijordur amma onun zəif xarakteri var. Olduqca mülayimdir. Qəddarlıq və tələbkarlıq hisləri ona yaddır. Bəzən bu mülayimliyi ona arzuolunmaz hadisələr yaşadırdı*." [Music and the Holocaust, 2000]

Dünya şöhrətli dirijorlar sırasında Nikolay Pavloviç Anosovun adını xüsusilə vurğulamaq lazımdır.

1930-cu ildən Ümumittifaq Radio orkestri ilə dirijorluq fəaliyyətinə başlayan Nikolay Pavloviç tez bir zamanda Rusiyada böyük şöhrət qazanır. Dirijor Azərbaycan Dövlət Konservatoriyasına dəvət alaraq, burada dirijorluq sinifi üzrə dərslər verir və Azərbaycan Dövlət Filarmoniyasının baş dirijoru kimi çalışır. Azərbaycanda fəaliyyət göstərdiyi illər ərzində professional dirijorluq məktəbinin formalaşmasında mühüm rol oynayaraq, saysız-hesabsız istedadlı mütəxəssislər yetişdirir. O, dirijorluq sənətinin tarixi və nəzəriyyəsi ilə ciddi məşğul olaraq, bu sahədə elmi əsərlər üzərində çalışır və dirijorluğun tədrisi problemlərini araşdırırdı. "Литературное наследие" elmi jurnalında onun haqqında dəyərli fikirlər irəli sürülürdü: "*Dirijorluq sənətinin aktual problemləri daima Nikolay Pavloviçin diqqətini cəlb edərək, bu sahədə saysız-hesabsız elmi məqalə, metodiki vəsait və monoqrafiyalar tərtib edir*" [Н.П.Аносов, Москва, 1978, 372 с].

1953-cü ildə Praqada A.Dvorjakın "Yeni dünyadan" simfoniyasını yüksək peşəkarlıqla idarə edir. Dünya musiqi ictimaiyyəti onu dahi dirijor və pedaqoq kimi tanıyaraq sevməyə başlayır. Rəhbərlik etdiyi illərdə rus musiqisinə üstünlük verərək, dəfələrlə M.Qlinka, P.Çaykovski, N.Rimski-Korsakovun opera və baletlərini tamaşaya qoyub onları ugurla idarə edir. Bu əsərləri hər dəfə dirijorluq

edərkən yeniliklər kəşf edir və əsərlərin aktual mövzularını canlandırırdı. N.P.Anosov dünyanın bütün ölkələrində keçirdiyi konsertlərdə özünəməxsus dirijorluq üslubunu yüksək potensiya və məharətlə nümayiş etdirməyə nail olmuşdur.XX əsrin 60-cı illərinin məşhur dirijorlarından olan Klaudio Abbado dirijorluq sənətinə özünəməxsus yeni üsullar gətirmişdir. O, Amerika Birləşmiş Ştatlarında keçirilən S.Kusevitski adına müsabiqədə və D.Mitropulos adına beynəlxalq müsabiqədə dirijor kimi ugurlu çıxış edərək fəxri fərmanla təltif edilir. Ardıcıl ugurları onun bu sənətə marağını daha da artıraraq, dirijorluğun sirlərinə dərindən yiyələnmək üçün Venada H.Svarovskinin rəhbərliyi altında stajor kimi çalışır. Bu müddətdə ardıcıl olaraq xarici ölkələrdə konsert-qastrol səfərlərinə dəvət alır. L.Bethovenin "Yeddinci simfoniya"sı, Q.Malerin "İkinci simfoniya"sı, S.Prokofyevin "Romeo və Cüliyetta" baletini repertuarına daxil edərək, bu əsərləri yüksək səviyyədə idarə edir.

Rusiya dirijorluq məktəbi istedadlı nəsil dirijorlar yetişdirmişdir. Onlardan biri də Qauk Aleksandr Vasilyeviçdir. Onun dirijor kimi ilk çıxışları 1931-33-cü illərə təsadüf edir. Bu illərdə dirijorun Leninqrad (indiki Sankt-Peterburq) Filarmoniyasının simfonik orkestrinə rəhbərlik etdiyi dövr olub, orkestrlə gərgin iş prosesi dirijorun yaradıcılığının formalaşmasına böyük təkan verir. Dirijor rəhbərlik etdiyi bu kollektivi özünün yaradıcılıq laboratoriyası adlandırır. Eyni zamanda dirijorun teatr yaradıcılığı da inkişaf edirdi. Belə ki, Marianski adına Opera və Balet Teatrının baş dirijoru kimi fəaliyyət göstərir. Rəhbərlik etdiyi illərdə rus bəstəkarlarından: M.Qlinkanın "İvan Susanin", S.Prokofyevin "Maddalena", P.Çaykovskinin "Qaratoxmaq qadın" operalarını, öz dövrünün bəstəkarlarından V.Deşevov "Qırmızı qasırğa", D.Şostakoviç "Qızıl əsr" əsərlərini böyük ugurla idarə edir.

1936-1941-ci illər ərzində Dövlət Simfonik orkestrinə rəhbərlik edərək, öz repertuarında rus və xarici ölkə bəstəkarlarının əsərlərinə üstünlük verir. Bir sıra görkəmli bəstəkarlar öz əsərlərinin premyerasını istedadlı dirijor Qauka etibar edirlər. Yaxın dostu və həmkarı A.Melik-Paşayev yazır: "*Qauk dirijorluq etdiyi əsərə sanki bir rəssam kimi yanaşaraq, əsəri bütün incəlikləri ilə təfsir edirdi. O, dünya xalqlarının musiqisinə böyük maraq göstərir, bu xalqların müxtəlif əsərlərini rəhbərlik etdiyi orkestr üçün köçürərək dirijorluq edir. Hansı ölkədə qastrol səfərində olurdusa, mütləq o ölkənin xalq musiqisini səsləndirərək, dinləyicilərin rəğbətini qazanır*" [Мелик-Пашаев А. Москва, 1957, с.11].

1953-cü ildən Qauk Moskva Radio və Televiziya Şirkətinin Böyük Simfonik Orkestrinin bədii rəhbəri və dirijoru kimi çalışaraq, bir sıra əsərləri lentə yazdırır. O, dirijorluqla yanaşı müəllimlik fəaliyyətini də davam etdirərək, çalışdığı Leninqrad, Tbilisi, Moskva Konservatiriyalarında E.Mravinski, A.Melik-Paşayev, E.Svetlanov, E.Mikeladze, E.Qrikurov N.Rabinoviç, O.Dimitriadi, K.Simyonov kimi istedadlı dirijorlar yetişdirir.

**Nəticə**

Beləliklə, XIX-XX əsrin dünya şöhrətli dirijorlar sırasında Lüdviq Şpor, Arturo Toskanini, Pyer Monte, Vilhelm Furtvenqler, Nikolay Anosov, Qauk Aleksandr Vasilyeviç və Klaudio Abbadonun adını xüsusilə vurğulamaq lazımdır. Bu dirijorların adları dünyanın ən məşhur dirijorları siyahısına daxil edilmişdir. Onların hər birinin özünəməxsus interpretasiyası olub, dirijorluq sənətini yeni üsullarla zənginləşdirmişlər. Onların dirijorluq ənənələri, orkestrlə iş prinsipləri və ifaçılıq üsulları gələcək dirijorlar nəsli üçün bir məktəbdir.

## ƏDƏBİYYAT

1. Друскин М.С. Игор Стравинский: Личность. Творчество. Взгляды. Ленинград, Советский коьпозитор, 1974, с. 221
2. Kater M.N. The Twised Muse Musicians and their Music in the Third reich Oxford Universitety Press. 1997.
3. Фуртвенглер Вилгельм. Music and the Holocaust, 2000.
4. htpps://holosaustmusic.ort.org.furtvenqler_vilhelm
5. Аносов Н.П. Литературное наследие. Переписка. Воспаминания современников. Москва, 1978, 372 с.
6. Мелик-Пашаев А. Талантливый дирижер. Москва, Советский композитор, 1957, с.11
7. Константинова И.Г., Тарасов Л.М. Артуро Тосканини. Великий маестро. Планета музыки. Лань, 2011, 640 с.

***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin***
***"Xalq çalğı alətləri ifaçılığı" kafedrasının baş müəllimi***
***E-mail:studyinabroad80@gmail.com***

**Mustafa Ashurov**

## FAMOUS CONDUCTORS OF THE XIX-XX CENTURIES AND THEIR INTERPRETATIONS

The relevance of the presented article is that, for the first time, the short creative path of world-famous conductors of the XIX-XX centuries and their interpretations are examined here. In the research process, the conducting traditions, orchestration set, and principles of work with the orchestra of the famous conductors Ludwig Spohr, Arturo Toscanini, Pierre Monte, Wilhelm Furtwengler, Nikolay Anosov, Gauck Alexander Vasilyevich and Claudio Abbado are determined. It is confirmed that the names of these conductors are included in the list of the most famous conductors in the world. Each of them had their own interpretation, they enriched the art of conducting with new methods. The performances of the conductors named above are an invaluable school for the next generation of conductors.

**Keywords:** *conductor, interpretation, world famous, maestro, orchestra, Wilhelm Furtwängler, Nikolay Pavlovich Anosov, Claudio Abbado.*

**Мустафа Ашуров**

## ЗНАМЕНИТЫЕ ДИРИЖЕРЫ XIX-XX ВЕКОВ И ИХ ИНТЕРПРЕТАЦИИ

Актуальность представленной статьи заключается в том, что здесь впервые рассматривается короткий творческий путь всемирно известных дирижеров XIX-XX веков и их интерпретации. В процессе исследования определены дирижерские традиции, оркестровый набор и принципы работы с оркестром известных дирижеров Людвига Шпора, Артуро Тосканини, Пьера Монте, Вильгельма Фуртвенглера, Николая Аносова, Гаука Александра Васильевича и Клаудио Аббадо. Подтверждено, что имена этих дирижеров включены в список самых известных дирижеров мира. У каждого из них была своя интерпретация, они обогащали искусство дирижирования новыми методами. Выступления названных выше дирижеров являются бесценной школой для будущих поколений дирижеров.

**Ключевые слова:** *дирижер, интерпретация, всемирно известный, маэстро, оркестр, Вильгельм Фуртвенглер, Николай Павлович Аносов, Клаудио Аббадо.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 13.05.2024**
**Son daxilolma tarixi:20.06.2024**